**UOT 94**

# AZƏRBAYCANIN TARİXİ TORPAĞI ZƏNGƏZURA 1918-1920-ci İLLƏRDƏ ERMƏNİLƏRİN ƏRAZİ İDDİALARI VƏ AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN GÖRDÜYÜ TƏDBİRLƏR

**Kamran ƏSƏDOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 2 mart 2023; çapa qəbul edilmişdir: 16 may 2023; online-da çap edilmişdir: 31 may 2023.

Received: 2th of March 2023; accepted: 16th of May, 2023; published online: 31st of May, 2023.

**Açar sözlər:** *Zəngəzur, tarixi Azərbaycan torpağı, Naxçıvan, Qarabağ*

## Giriş

Ermənilərin Cənubi Qafqazda Azərbaycan torpaqlarında yerləşdirilməsi Çar Rusiyasının Qafqaz siyasətinin tərkib hissəsi idi. Məhz 1918-ci ildə regionda Ermənistanın da müstəqil respublika olması üçün İrəvanın Ermənistana mərkəz olaraq verilməsi bu siyasətin əsas hədəflərindən birinə xidmət edirdi və sonrakı proseslərdə Zəngəzurun Azərbaycandan qoparılması kimi ağrılı məqamları gerçəkləşdirdi.

Prezident İlham Əliyevin 07 iyul 2021-ci il imzaladığı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" fərmanında Şərqi Zəngəzur iqtisadi rayonunun yaradılması, tarixi torpağımız olan Zəngəzurla bağlı yol verilmiş ədalətsizliyin aradan qaldırılmasında mühüm rol oynayacaq.

Deportasiya, zorakı etnik təmizləmə, ərazi iddiaları Azərbaycan tarixşünaslığında elmi nəzəri və fundamental tədqiqat tələb edən problemləridir. Cənubi Qafqazda Azərbaycan türklərinə məxsus olan və uydurma "erməni məsələsi"nin qurbanına çevrilən ərazilərindən biri də Zəngəzur qəzasıdır. Daşnaksütyun partiyası fəaliyyətini Türkiyə ərazisindən Cənubi Qafqaz ərazisinə keçirdikdən sonra hədəfə aldıqları əsas Azərbaycan ərazisi Qarabağ və Zəngəzur qəzası idi. Zəngəzur qəzasında Azərbaycan kəndləri erməni kəndləri ilə əhatə olunduğu üçün ən təhlükəli vəziyyət burada yaranmışdır. Zəngəzur qəzası Qarabağ ilə Naxçıvan arasında yerləşdiyi üçün geosiyasi və geostrateji əhəmiyyət kəsb edirdi. Digər tərəfdən, Zəngəzur qəzası İran və Türkiyə dövlətləri ilə sərhəd təması olduğu üçün Rusiya dövləti üçün strateji ərazi hesab olunurdu. Zəngəzur qəzasının özünəməxsus xüsusiyyətləri hər zaman bu qəzanın tarixinin elmi tədqiqat predmeti olmasını zəruri edib.

## Çar Rusiyasının dağılmasından sonra Zəngəzurda siyasi vəziyyət

Rusiya işğalı dönəmində Azərbaycan dövlətçiliyi üçün təhlükə mənbəyi olan Azərbaycan xalqının etnik təmizləməyə və ərazi itkisinə məruz qalması adi bir hal almışdı. Ona görə də XIX- XX əsr Azərbaycan tarixi, xalqımızın etnik birliyinə, ərazi bütövlüyünə və dövlətçilik ənənəsinə qarşı yönələn təhdidlərlə yaddaşlarda qalıb. Tarixi şəraitə uyğun olaraq, Rusiyanın siyasi rəhbərliyi tərəfindən Azərbaycan xalqına qarşı yönələn deportasiya və zorakı ərazi təmizləmələri formaca müxtəlif, məzmunca eyni idi.

1918-ci ildə Cənubi Qafqazın dövlət-ərazi delimitasiyası əhalinin əsrlər boyu forma-

* *doktorant, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*e-mail:* kamranesedov@bk.ru orcid.org/0000-0003-1115-3566

laşmış sosial-iqtisadi həyat tərzini pozmuş, bununla da burada yaranmış milli dövlətlər arasında kəskin sərhəd münaqişələrinə səbəb olmuşdur. 1918-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının əsas obyektlərindən birinə çevrilmiş Qarabağ və Zəngəzur kimi bölgələr buna bariz nümunədir. Bu dövrdə Tiflisdəki Erməni Milli Şurası ərazilərin delimitasiyası haqqında şifahi razılaşma əldə etdi. Razılaşma tərəflərin Batumda əldə etdiyi razılığa əsaslanırdı ki, Azərbaycan İrəvanın Ermənistanın paytaxtı elan edilməsinə etiraz etməyəcək və bu xoşməramlı jestinə cavab olaraq Ermənistan Yelizavetpolun bir hissəsinə, yəni Qarabağın dağlıq hissəsinə iddialardan əl çəkəcək. Lakin Ermənistan tərəfi bu formatda danışıqlar aparmaqdan imtina etdi və razılaşmanın tələblərini pozdu. Erməni nümayəndə heyətinin sədri Aqaronyan 1918-ci il iyulun 8-də İstanbula yolladığı teleqramında Ermənistanın xarici işlər naziri Oqancanyana bu barədə məlumat vermiş Cənubi Qafqaz respublikalarının hökumət nümayəndə heyətləri 1918-ci il iyunun sonundan qarşıdan gələn konfransa hazırlaşmışdılar [4, 89].

Aqaronyanın görüşə təqdim etdiyi teleqramında qeyd olunurdu ki, Batum danışıqlarının heç bir mənası yoxdur, çünki onların iddia etdiyi ərazilər üç müstəqil dövlətə deyil, Zaqafqaziya rayonlarının sərhədlərinə aiddir. İndi erməni tərəfi hesab edirdi ki, Ermənistanın sərhədləri ən azı Şuşa, Karyaqino, Cavanşir, Zəngəzur, Dəralagöz, Sürməli, Naxçıvan və Şəruru əhatə etməlidir. Bununla da Ermənilər müsəlman əhalisinin erməni əhalisindən üstün olduğu çox olduğu Yelizavetpol və İrəvan quberniyalarının əraziləri hesabına sərhədlərini genişləndirməyə çalışırdı. Odur ki, Azərbaycan Nazirlər Şurasının sədri Fətəli Xan Xoyski İstanbul konfransında Azərbaycan nümayəndə heyətinin rəhbəri Məmməd Əmin Rəsulzadəyə 31 iyul 1918-ci il tarixli göndərişində İrəvan və Qazaxın bir hissəsinin Ermənistanın xeyrinə verilməsindən imtina etməyi təklif etdi. Azərbaycan hökumətinin 1918-ci ilin yayından Azərbaycan hökumətinin bölgədə nizam-intizam yaratmaq məqsədilə Qarabağ və Zəngəzurun erməni əhalisini tərksilah etmək cəhdləri müqavimətlə üzləşdi. Vəziyyət 1918-ci ilin yayında Qarabağda və Zəngəzurda Andranikin başçılıq etdiyi erməni birləşmələrinin peyda olması, müsəlmanları talan, zorakılıq və qətllər törətməsi ilə ağırlaşdı. Nəticədə 1918-ci ilin sonunda 150-yə yaxın müsəlman kəndi talan edildi və yandırıldı. Əhali isə Qarabağın aran hissəsinə köç etdilər [22, 74].

1918-ci il noyabrın əvvəllərində türk qoşunları Cənubi Qafqazı tərk etdikdən sonra bölgəyə nəzarət elə həmin ayın ikinci yarısında buraya gələn ingilis qoşunlarının əlinə keçdi. Azərbaycan hökumətinin başçısı Xoyskinin 1918-ci il sonlarında Andranikin regionda azərbaycanlılara qarşı cinayətlərlə bağlı barədə ingilis kontingentinin komandiri general Tomsona ünvanladığı yazılı müraciət sonra Tomson erməni komandirindən hərbi əməliyyatları dayandırmağı tələb etdi. Bundan başqa, Tomson Gəncə, Qazax və Cavanşir qəzalarında erməni rəhbərlərinə göndərdiyi teleqramda onları azərbaycanlı əhaliyə qarşı vəhşilikləri və talanları dayandırmağa çağırıb və xəbərdarlıq edib: “Bütün ermənilərə bildirin ki, öz evlərində sakit otursunlar. Əgər itaətsizlik olarsa, tökülən qana görə birbaşa siz cavabdeh olacaqsınız” [3, 89].

Şübhəsiz ki, ermənilər hadisələrin belə bir dönüşünə eləcə də 1919-cu ilin yanvarında Azərbaycan hökumətinin göstərişi ilə Qarabağda və Zəngəzurda general-qubernatorluğun yaradılmasına hazır deyildilər. Qarabağ və Zəngəzurun ayrıca xüsusi səlahiyyətlərə malik general qubernatorluğuna çevrilməsi təklifi Azərbaycan Respublikasının daxili işlər naziri Xəlil bəy Xasməmmədov tərəfindən 1919-cu ilin əvvəllərində bölgədəki vəziyyətlə bağlı hökumətə verdiyi məruzədə irəli sürülüb. Əsas səbəblər Ermənistandan gələn emissarların qızışdırdığı yerli ermənilərin separatçılıq istəkləri, əhalinin müsəlman hissəsinə qarşı törədilmiş qanlı hadisələr, onların arxasında ciddi hərbi qüvvənin olmaması səbəbindən yerli hakimiyyət orqanlarının zəifliyi, habelə natamam kommunikasiya idi (19). Azərbaycan hökumətinin 15 yanvar 1919-cu il qərarı ilə ixtisasca həkim olan Xosrov bəy Sultanov general-qubernator təyin edildi [5, 85].

ADR-in İrəvandakı diplomatik nümayəndəliyinin başçısı əvəzi M.Mirbabayevin məlumatlarından isə bunlar aydınlaşır: Dro Zəngəzurdakı bütün erməni silahlı qüvvələrinin komandanı, Bakının "keçmiş Qəhrəmanı" general Qazarov isə onun köməkçisi təyin edilmişdilər; yeni alayların təşkili üçün Ermənistandan 4 rota və xeyli zabit, 3 dağ və 2 səhratopu göndərilmiş rus zabitinin komandanlığı altında 8 pulemyotlu yeni rota hazırlanmışdı; Naxçıvan və Şərur savaşlarında olduğu kimi burada da Ermənistandan gətirilən döyüşçülər arasında fərarilik halları çoxalmışdı; Dronu komandan təyin edən Ermənistan hökuməti, bir tərəfdən Zəngəzurda gedən proseslər və baş verən hadisələrlə heç bir əlaqəsi olmadığını bildirirdi, digər tərəfdən isə Xatisyan deyirdi ki, "*Zəngəzurun əhalisi Nikolay dövrünün əsgərləri olduqlarından biz onlardan alaylar təşkil etmək üçün zabitlər göndərmişdik*" [7, 45].

Qarabağ general-qubernatorluğunun mövcudluğunun ilk günlərindən Ermənistan hökuməti və qondarma "Qarabağ və Zəngəzur Erməni Milli Şurası"nın nümayəndələri Britaniya komandanlığını məktublar, teleqramlar və xüsusi təyinatlıların yaradılmasına etiraz bildirən müraciətlərlə doldurdular. Qarabağ və Zəngəzurdakı idarə Azərbaycan hökumətinə tabe idi. Eyni zamanda Ermənistan hökuməti Qarabağı və Zəngəzuru öz ərazisinin "ayrılmaz hissələri" adlandırıb. Erməni Milli Şurası, hətta Zəngəzurun və Qarabağın erməni hissəsinin Azərbaycan hökumətinə tabe olmayan ingilis zabitinin başçılıq etdiyi ayrıca general qubernatorluğa çevrilməsini təklif etdi [12, 85].

İngilis komandanlığının Qarabağın general-qubernatorluğunun statusu ilə bağlı öz nümayəndələrinin açıqlamalarında ilk vaxtlar bir-birinə zidd olan addımları da erməni tərəfinin təzyiq göstərməsi üçün bəhanə verdi. Qarabağ ermənilərinin və Ermənistan hökumətinin nümayəndələri ilə Qafqazdakı ingilis qoşunlarının komandanı general Tomson, eləcə də Şuşadakı ingilis missiyasının nümayəndələri ilə görüşlər zamanı bildirdilər ki, Azərbaycan administrasiyasının və qoşunlarının Qarabağda və Zəngəzurda olması o demək deyildi ki, gələcəkdə bu ərazilər Azərbaycana məxsus olmalıdır, çünki onların son taleyi sülh konfransında həll olunacaq. Britaniya komandanlığının bu bəyanatları erməni separatçılarının intriqalarının güclənməsinə səbəb olub. Məsələn, 1919-cu ilin mart ayında Erməni Milli Şurasının nümayəndələrinin öz hökumətlərinə və onların Qarabağ və Zəngəzurdakı komissarına göndərdikləri məktublarda Azərbaycan general-qubernatorluğunun ləğv edilməsi, qeyd edilən ərazidəki ermənilərin erməni nümayəndə heyətinə daxil edilməsi Paris Sülh Konfransında bölgədə bir komandanlıq yaratmaq, onu bacarıqlı heyət, hərbi sursat və digər maddi vəsaitlərlə təmin etmək vəzifəsi qoyulmuşdu [21, 115].

Lakin ingilis qoşunlarının Qarabağdakı komandanlığından sonra polkovnik D.Şatlvortun ağzından general-qubernator X.Sultanovun 1919-cu il aprelin 3-də yeganə ali hakimiyyət orqanı kimi əhalini onun bütün əmrlərinə şəksiz-şərtsiz əməl etməyə çağırması ilə ingilislərin hərəkətləri daha mütəşəkkil xarakter alır. Bir ay sonra ın Gürcüstandakı Ermənistan diplomatik nümayəndəsi bildirib ki, general Tomson Şattlvort və mayor Monk-Massonun Qarabağ və Zəngəzurdakı vəziyyətlə bağlı məruzələrini əsas tutaraq belə nəticəyə gəlib ki, erməni əhalisini Azərbaycan hakimiyyətinə tabe olmamağa vadar edən Ermənistan hökumətinin rəsmilərinin təsiri ilə bölgədə iğtişaşlar baş verir. 1919-cu il may ayının sonunda bu nümayəndələr ingilislər tərəfindən bölgədən qovuldu [6, 56].

İngilislərin qətiyyətli hərəkətləri Qarabağ və Zəngəzurun erməni əhalisinin və onların rəhbərlərinin siyasi əhval-ruhiyyəsinə müəyyən təsir göstərdi. Bu, 1919-cu il avqustun 15-də Şuşada keçirilən Qarabağ və Zəngəzur ermənilərinin VII qurultayının qərarlarında da öz əksini tapmışdır. Qurultay 26 bənddən ibarət "Dağlıq Qarabağ ermənilərinin Azərbaycan hökuməti ilə müvəqqəti müqaviləsi"ni qəbul etmişdir: "Qarabağın dağlıq hissəsi – ermənilərin məskunlaşdığı Şuşa, Cavanşir və Cəbrayıl qəzaları (Dizək, Vərəndə, Xaçen və Carabert) bu məsələ sülh yolu ilə həll olunana qədər özünü müvəqqəti olaraq Azərbaycan Respublikasının sərhədləri daxilində hesab edir [13, 35].

**1919-cu ildə Azərbaycan Xalq Cümhuriyyətinin Zəngəzurda fəaliyyəti**

1919-cu il avqustun sonlarında ingilis qoşunları Azərbaycandan çıxarıldıqdan sonra ABŞ ordusunun qərargah rəisi, Paris Sülh Konfransında Müttəfiq Qüvvələrin Cənubi Qafqaz üzrə Ali Komissarı təyin edilmiş polkovnik Uilyam Haskell bölgəyə səfər etdi. 1919-cu ilin iyulunda Beşlər Şurasının (ABŞ, İngiltərə, Fransa, İtaliya və Yaponiya) qərarı ilə Haskell avqustun 20-də əvvəlcə İrəvana, 23-də Tiflisə, nəhayət, avqustun 28-də Bakıya gəldi [2, 23]. Haskellin bölgəyə səfəri ilk növbədə Parisdə sülh konfransının başlaması və müttəfiqlərin Rusiya imperiyasının xarabalıqları üzərində formalaşmış milli dövlətlərin nümayəndələri ilə müstəqilliklərinin tanınması proseduru ilə bağlı fəal danışıqları ilə əlaqədar idi [16, 75].

Bu prosesin episentrində Cənubi Qafqaz respublikaları dayanırdı. Haskell missiyasının qarşısında duran mühüm vəzifələrdən biri yeni yaranmış respublikaların sülh konfransına təqdim etdikləri memorandumların müddəalarının məzmunu ilə uyğunluğunu yerindəcə yoxlamaq və məsələ ilə bağlı məruzə hazırlamaq idi. Ən ciddi olanı sərhədlər məsələsi idi və Haskell regionun ərazi münaqişələrindən, şübhəsiz, məlumatlı idi. Haskell Qarabağ və Zəngəzur ətrafında Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı keçmiş Britaniya komandanlığının mövqeyini də bilirdi [1, 96].

Ona görə də Haskellin bu problemlə bağlı Antanta müttəfiqinin mövqeyi ilə həmrəy olduğu hiss olunurdu. 1919-cu il avqustun 28-də Azərbaycanın baş naziri Nəsib bəy Yusifbəyli ilə görüşündə Haskell Qarabağ və Zəngəzurun Azərbaycanın tərkib hissəsi olması nöqteyi-nəzərindən çıxış etdi. Eyni zamanda, Haskell Ermənistan parlamentindəki çıxışının Azərbaycana qarşı hədə-qorxu ilə səslənən sensasiyalı hissələrini inkar etmişdi.

Eyni zamanda Ermənistan hökuməti Azərbaycan qoşunlarının Zəngəzurda olmasına etiraz edərək onun Ermənistanın tərkibində olduğunu və Azərbaycan hökumətinin bu sahədə hər hansı hərəkətini Britaniya komandanlığının qərarlarına zidd və qəbuledilməz hesab etdiyini bildirib. çünki onlar arzuolunmaz nəticələrə və qanlı hadisələrə səbəb ola bilərdi. Ermənistan tərəfi Azərbaycana məsələni ikitərəfli konfransda həll etməyi təklif edib. Cavabında Azərbaycan hökuməti Zəngəzur işini Azərbaycanın daxili işi hesab etdiyini və bu məsələdə Ermənistan hökuməti ilə hər hansı danışıqlara getməyi mümkün saymadığını bildirdi. Eyni zamanda vurğulanıb ki, Britaniya komandanlığı Qarabağ və Zəngəzuru Azərbaycana verərək çoxdan ərazilərin ilkin delimitasiyasını həyata keçirib [10, 28].

Azərbaycan hökuməti konfransın qərarlarının Ermənistan və Azərbaycan arasında ərazi mübahisələrinin müvəqqəti deyil, yalnız yekun həlli olması şərti ilə Bakıda keçirilməsinə razı olduğunu bildirməsi təsadüfi deyildi. Azərbaycan diplomatiyası ermənilərin gedişlərinə yaxşı bələd idi – ilk öncə yüksək səslə bəyanatlar vermək, özlərini alovlu sülhməramlılar kimi təqdim etmək və münaqişənin həllində qətiyyətləri barədə geniş vədlər vermək, sonra isə son anda sözlərini təkzib etmək [14, 8].

Odur ki,  xarici işlər naziri Cəfərov 1919-cu il oktyabrın 13-də Ermənistanın Azərbaycandakı səlahiyyətli nümayəndəsi Bekzadyanla görüşündə bilavasitə qarşı tərəfə xəbərdarlıq etdi. Ermənilərin tutduğu barışmaz mövqe ilə ilk növbədə həm mübahisə obyektləri, həm də qarşılıqlı güzəştlərin maksimumu aydınlaşdırılmayınca qətiyyətlə heç bir iş görülməyəcək və proqnozlaşdırılan konfrans heç bir nəticə verməyəcək [21, 49]. *"Əgər suallara bu cür ilkin aydınlıq gətirilməzsə və məsələlərin həlli yolu göstərilməzsə, mən bir daha cəmiyyətə qarşı barışmazlıq nümayiş etdirmək üçün konfrans çağırmağı tamamilə lüzumsuz hesab edirəm və sizdən xahiş edirəm ki, mövcud məsələlərlə bağlı hökumətinizlə əlaqə saxlayasınız. tabii ki, Ermənistan hökuməti səmimi şəkildə qarşılıqlı razılaşmaya gəlmək istəməsə, mənim tərəfimdən qaldırılmışdır*" [8, 125].

1919-cu il noyabrın 20-də Tiflisdə başlayan Ermənistan-Azərbaycan sülh konfransının nəticələri Azərbaycan xarici işlər nazirinin qorxusunu tam təsdiqlədi. Konfrans

ərəfəsində Azərbaycan hökuməti Qarabağdakı ordu hissələrinə hərbi əməliyyatları dayandırmağı əmr etmişdi. Hökumətin hesabatlarından belə məlum olur ki, Qarabağ general-qubernatorunun köməyinə qoşun göndərilməsi Ermənistan hökumətinin Zəngəzura nizami qoşun, silah və hərbi sursatların erməni əhalisi arasında paylanması üçün göndərilməsinə dair təkzibedilməz sübutların olması ilə əlaqədar idi [15, 36].

Zəngəzur ermənilərinin Azərbaycan hakimiyyətini tanımaq istəmədiklərini göstərmək üçün lazımi vaxtda üsyan qaldırmaq məqsədilə bölgəyə silah sursat tədarük olunmuşdu. Belə bir şəraitdə hökumət, xüsusən də həmin dövrdə Zəngəzur qəzasında Andranikin silahlı dəstələrinin vəhşilikləri nəticəsində öz yurd-yuvalarını tərk etmiş 60 min azərbaycanlı qaçqının öz torpaqlarına qaytarılması zərurəti yarandığından hökumət biganə qala bilməzdi [19, 52].

Konfransın yekunlarına əsasən, 1919-cu il noyabrın 23-də tərəflər sülh müqaviləsi bağladılar və sərhəd məsələləri də daxil olmaqla bütün mübahisə yaradan məsələləri diplomatik yolla həll etməyə razılaşıblar. Nəzərdə tutulurdu ki, müqavilə imzalanan andan etibarən müqavilə bağlayan iki hökumətdən heç biri o vaxta qədər onu tanımayan əraziləri silah gücü ilə ələ keçirməyəcək. Müqavilənin şərtlərinə əməl edən Azərbaycan hərbi hissələrini Zəngəzurdan çıxardı. Ermənistan əldə olunmuş razılaşmaları kobud şəkildə pozaraq dərhal nizami qoşunlarını bura göndərdi [18, 85].

Həmin vaxt Bakıda olan britaniyalı hərbi jurnalist Scotland-Liddell Londona xəbər verir ki, noyabrın 23-də imzalanan müqavilədən sonra ermənilər Azərbaycan qoşunlarının çıxarılmasından istifadə edərək Zəngəzurda müsəlmanlara xaincəsinə hücum edib, orada da dağıdıblar, qırx müsəlman kəndinə qədər. Azərbaycanın Baş naziri N.Yusifbəyli 8 dekabr 1919-cu il tarixdə Antantaların Ali Komissarı polkovnik Haskelə göndərdiyi teleqramda Zəngəzur qəzasında baş verən son hadisələrə toxunaraq ehtiyat edirdi ki, əgər Zəngəzur əhalisinin erməni hissəsində top və pulemyot olarsa, onda onların sonrakı hərəkətlərinə və anarxiyanın davam etməsinə heç bir zəmanət yox idi [14, 14].

Buna görə də Azərbaycan hökumətinin başçısı erməni quldur dəstələrindən silah və pulemyotların ələ keçirilməsi üçün 5 gündən gec olmayaraq Zəngəzur qəzasına amerikalı zabitlərdən ibarət komissiya göndərilməsini təklif etdi. Azərbaycan hökuməti xəbərdarlıq edirdi ki, əks halda anarxiyanı törədənlərin Zəngəzurda birgə yaşayış prinsiplərinə riayət etmək zərurətini dərk etmələrinə səbəb ola biləcək konkret tədbirlər görməyə məcbur olacaq. 11 dekabr 1919-cu il tarixli teleqramında Haskell bildirir ki, o, "*teleqramı qəbul edib Ermənistan prezidenti-nazirinə bu əlavə ilə göndərib: istintaqdan sonra bu ittihamlar təsdiqini taparsa, bu, Ermənistanın gələcəyinə ən güclü zərbə olacaq*" [20, 71].

Bu arada, 1919-cu il dekabrın 14-dən dekabrın 21-dək Bakıda Ermənistan-Azərbaycan sülh konfransı keçirildi və bu konfrans Ermənistanla Azərbaycan arasında yığılıb qalmış bütün kəskin problemləri həll etmək üçün noyabrda Tiflisdə başlanmış danışıqları davam etdirdi. Konfransın gündəliyində duran ən əsas məsələ iki respublika arasında ərazi problemlərinin həlli olub. Burada tərəflərin mövqeləri yenidən diametral şəkildə əks idi [11, 45]. Azərbaycan tərəfi ərazi və digər mübahisələrin həlli üçün belə bir siyasi birliyin hamı üçün ən yaxşı və məqbul olacağına inanaraq Cənubi Qafqazın bütün respublikalarının konfederasiyası ideyasını irəli sürdü. Ermənistan nümayəndə heyəti yenidən qeyri-konstruktiv mövqe tutaraq bildirib ki, yekun sərhədlər müəyyən edilməmişdən əvvəl demarkasiya xətti ilə bağlı müvəqqəti saziş bağlanmalıdır. Bütövlükdə bu mövqe gözlənilən idi: Ermənistan Paris konfransının "erməni məsələsi" ilə bağlı qərarlarını səbirsizliklə gözlədiyi üçün qonşuları ilə sərhədlərdə heç bir uzunmüddətli razılaşma ilə özünü bağlamaq istəmirdi. Bu məsələnin Ermənistanın xeyrinə həll olunması keçmiş İrəvan quberniyasının, Qarabağın və Zəngəzurun bütün ərazilərinin Ermənistana verilməsi demək olardı [17, 85].

Ermənilər Ararat Respublikasının ilk baş naziri Kaçaznuninin yazdığı kimi sərhədləri "Aralıq dənizindən Qara dənizə, Qarabağ dağlarından Ərəbistan səhralarına qədər" uzanan "Böyük Ermənistan" avantürist ideyasını xəyal edirdilər. Aydındır ki, belə geniş perspektivlərlə Ermənistan sərhədin müəyyən hissələrində Azərbaycanla razılaşma kimi xırda şeylər əldə etmək istəməyib. Ona görə də konfransda Ermənistan nümayəndə heyəti fərqli bəhanələrlə yenidən Azərbaycanla qarşılıqlı sərhədlərin yekun təsdiqlənməsindən yayınıb. Onların demarkasiya xəttinin yaradılması təklifinə gəlincə, Ermənistan və Azərbaycanın sərhədyanı rayonlarındakı real etno-demoqrafik vəziyyət vətəndaşların iqtisadi durumunu və yaşam tərzini əsas götürmədən belə bir qopmanı praktiki olaraq mümkünsüz edirdi [15, 62].

Məsələ burasındadır ki, Azərbaycan maldarları ənənəvi olaraq yayda sürülərini Zəngəzur dağlarına, qışda isə düzənlik Qarabağ düzlərinə aparırdılar. Bu səbəbdən də Ermənistanın dağlıq Zəngəzura iddiası köçəri məskunlaşmalar haqqında şəxsiyyət vəsiqələri və arayışlar təqdim etməklə keçidləri sadələşdirməyə çalışması, bu köçlərin qarşısını almaq üçün mühafizə və gömrük postlarının yaradılması tərəflərin gərginliyinə səbəb olmuşdu. Azərbaycan hökumətinin etirazları nəticəsiz qaldı və sülh konfransı heç bir nəticə vermədən işini yekunlaşdırdı [9, 63].

1920-ci ilin yanvar-aprel aylarında Zəngəzur və Qarabağın azərbaycanlı kəndləri yerli ermənilərin dəstəyi ilə erməni qoşunlarının yeni hücumlarına məruz qaldı. Yenidən qan töküldü və müsəlman əhali arasında yeni qaçqın dalğası yarandı. Bu, Azərbaycan hökumətini Ermənistanla sərhəddə Qarabağ və Zəngəzurda əhəmiyyətli hərbi qüvvələr cəmləşdirməyə məcbur etdi və bununla da bolşevik Rusiyasının hərbi təhlükəsinin artdığı şimal sərhədlərini müdafiəsiz qoydu. Beləliklə, Azərbaycanın sovetləşməsi ərəfəsində Azərbaycan hökumətinin bütün diplomatik və siyasi səylərinə baxmayaraq, Qarabağ və Zəngəzur ətrafında Ermənistanla münaqişə öz sülh yolu ilə həllini tapmadı [15, 59].

XX əsrin 20-ci illərinin əvvəllərində Zəngəzurun sovetləşdirilməsi, onun bir hissəsinin ermənilərə verilməsi, XX əsrin sonlarında yenidən SSRİ-nin "himayəsi" ilə Zəngəzurun şərq və ya aşağı hissəsinin işğalı təxminən eyni plan, eyni havadar, eyni yardımlar hesabına həyata keçirildiyindən, bu mövzu müasir dövrdə də, sonrakı onilliklərdə də öz aktuallığını daim saxlayacaqdır. 1918-1929-cu illərdə erməni separatizminə qarşı həyata keçirilən əməli tədbirlər, AXC hökumətin apardığı mübarizənin öyrənilməsi və uğurlu təcrübənin ümumiləşdirilməsi çağdaş günlərimizdə də əhəmiyyətlidir.

**Nəticə**

Beləliklə, XX əsrin 20-ci illərinin mürəkkəb hərbi-siyasi hadisələri fonunda Zəngəzur bölgəsinin demoqrafik vəziyyətinin, etnik mənzərəsinin öyrənilməsi sübut edir ki, Zəngəzur bölgəsi qədim Azərbaycan-türk yurdudur, Zəngəzurda yerli əhalinin erməni-daşnak, bolşevik-rus işğalına qarşı sistemli olmasa da mübarizə aparmışdır. Lakin mövcud mürəkkəb siyasi vəziyyət və imperiya niyyətlərinin torpaqlarımızın işğalına hədəflənməsi ərazilərimizin işğalı ilə nəticələnmişdi.

**ƏDƏBİYYAT**

1. Azərbaycan Xalq Cümhuriyyəti (Azərbaycan Demokratik Respublikası). Xarici siyasət. (Sənədlər və materiallar). Bakı: Qartal, 1998, 200 s.
2. Nərimanoğlu H. Anadoluda əbədiyyətə qovuşmuş Zəngəzurlu məşhurlar / III Beynəlxalq Həmzə Nigari Türk Dünyası Mədəni İrsi Simpoziumu materialları, 17-18 may 2017-ci il, s. 358-369.
3. Hüseynov Ə. Çaylar səmtinə axar: Zəngilanın, Zəngəzurun yazılmamış keçmişindən // Ulduz, 2005, №2, 75-83.

4. Abasov Ə. Zəngəzur faciəsini yaşayan və yaşadan ədib. Bakı: Mütərcim, 2016, 96 s.
5. Musa U. Zəngəzur  Bakı: Nurlar, 2005, 504 s.
6. Rusiyanın Qafqazı işğal etməsi və XIX əsrdə Zəngəzur bölgəsinin demoqrafik vəziyyətində baş verən dəyişikliklər // Dövlət İdarəçiliyi: Nəzəriyyə və təcrübə, №3 (55), 2016, s. 234-240.
7. Türk, ya erməni soyqırımı: gerçək tarix rus, ingilis, fransız, amerikan, yəhudi, gürcü, erməni şahidlərin gözü, sözü ilə. Bakı: QHT nəşriyyatı, 2015, 126 s.
8. 1905-1906-cı illərdə ermənilərin törətdikləri qırğınların Zəngəzur qəzasının demoqrafik vəziyyətinə təsiri // Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Qızlar Universiteti. Elmi Əsərlər, 2016, №3, s. 187-192.
9. Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922-ci illər). Bakı: Azərnəşr, 2011, 474 s.
10. Nərimanoğlu H. XIX-XX əsrin əvvəllərində Şimali Azərbaycanın Zəngəzur bölgəsinin demoqrafik durumunda dəyişikliklər // "XX əsrdə türk-müsəlman xalqlarına qarşı soyqırımları" mövzusunda IV beynəlxalq elmi konfransın materialları (Lənkəran, 22-27 aprel 2017), s. 353-360.
11. Şimali Azərbaycanın Zəngəzur bölgəsinin Ermənistana birləşdirilməsi böyük dövlətlərin və qonşu ölkələrin Qafqaz siyasətində // Geostrategiya, 2017, №2 (38),  s. 62-66.
12. Şimali Azərbaycanın Zəngəzur bölgəsinin demoqrafik durumunda XIX-XX əsrin əvvəllərində baş vermiş dəyişikliklərin səbəb və nəticələri // Pedaqoji Universitetin Xəbərləriş Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası. 2017, №1, s. 97-106.
13. Ümummilli lider Heydər Əliyev və Zəngəzur bölgəsində azərbaycanlıların soyqırımı və deportasiyası tarixinin tədqiqi məsələləri // Strateji təhlil, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2017, №1-2 (19-20), s. 341-353.
14. Zəngəzur bölgəsinin tarixinin öyrənilməsində ümummilli lider Heydər Əliyevin rolu // Gənc Tədqiqatçı, AMEA Gənc Alim və Mütəxəssislər Şurası. II cild, №2, 2016, s.144-152.
15. 1918-1920-ci illərdə Zəngəzurun demoqrafik vəziyyətinin dəyişməsində Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin məsuliyyəti. ATMU Turizm və qonaqpərvərlik tədqiqatları, beynəlxalq jurnal. 2017, say: 1, s. 194-208.
16. Zəngəzur bölgəsi: qədim dövrlərdən XX əsrin əvvəllərinədək // Azərbaycan xalçaları. 2017, 7-ci c., №22, s. 102-120.
17. Zəngəzur və Qarabağda ermənilərin törətdikləri qətliamlar Osmanlı-Türkiyə mənbələrində. Bakı: QHT nəşriyyatı, 2014, 78 s.
18. Zəngəzurda doğuldular, Anadoluda əbədiyyətə qovuşdular. Bakı: "QHT nəşriyyatı" 2014, 86 s.
19. Seyidov T. Zəngəzur – əsarətdə qalan yurdum: Tarixi Azərbaycan torpaqlarının Ermənistana verilməsi nə vaxtdan başlayıb? // Azad Azərbaycan, 2008, 12 fevral, s. 6.
20. Məmmədov X., Məmmədov N. 1918-1920-ci illərdə erməni millətçilərinin Naxçıvan, Zəngəzur və Qarabağda qanlı cinayətləri // Xalq qəzeti, 2009, 3 aprel, s. 4.
21. Abdulla H. Demographic Results of the Genocide and Deportation Committed by Armenians in Zangazur Region of Northern Azerbaijan at the Beginning of the XX Century // "European Journal of Humanities and Social Sciences" 3, 2017, Austria, Vienna, p. 8-11.
22. Abdulla H. The Flow of Refugees from the Zangazur Region of Azerbaijan to the Anatolian Lands in the 19th and 20s of the 20th Centuries as One of the Consequences of the Genocide and Deportations Reated by the Russian and Armenian Armed Forges against the muslim-turkic // IX. International Turkic Art, History and Folklore Congress / Art Activities,  2017, 28-29 Eylül (September), İzmir, pp. 23-32.

**_Summary_**

**_Kamran Asadov_**

**_Zangezura, the Historical Land of Azerbaijan, Territorial Claims of Armenians in 1918-1920 and Measures Taken by the Azerbaijan Democratic Republic_**

The Caucasus is a geography that has maintained its strategic importance and has been important to empires with interests in the region throughout history. The economic and political interests of many states have been focused on this geography, especially since the 19th century. Especially after the First World War, a tense period began in the political and social situation of Azerbaijan in the South Caucasus.

As a result of complex political processes in the region during the last two hundred years, Azerbaijanis have been subjected to forced displacement from their ancestral homeland, ethnic cleansing and deportation policies. The policy of creating the "historical ancient lands" of Armenians was implemented step by step. At first, they created a small Republic of Armenia on the lands of Azerbaijan, that is, on the territory of the former Iravan Khanate, and gradually expanded its territory. It is clear from history that after the signing of the "Gulistan" and "Turkmanchay" agreements between Iran and Russia, and the "Andrianopol" agreement between Russia and Turkey, Armenians from Iran and Turkey were resettled on a large scale to the lands of Azerbaijan. Azerbaijanis, whose lands were occupied, were artificially placed in the situation of refugees and internally displaced persons.


**_Key words:_** _Zangezur, historical land of Azerbaijan, Nakhchivan, Karabakh_


**_Резюме_**

**_Камран Асадов_**

**_Зангезура, историческая земля Азербайджана, территориальные претензии армян в 1918-1920 годах и меры, предпринятые Азербайджанской Демократической Республикой_**

Кавказ – это география, которая сохранила свое стратегическое значениеи была важна для империй с интересами в регионе на протяжении всей истории. Экономические и политические интересы многих государств были сосредоточены на этой географии, особенно с 19 века. Особенно после Первой мировой войны начался напряженный период в политическом и социальном положении Азербайджана на Южном Кавказе.

В результате сложных политических процессов в регионе за последние двести лет азербайджанцы подверглись насильственному перемещению с исконной родины, политике этнических чисток и депортации. Политика создания «исторических древних земель» армян осуществлялась поэтапно. Сначала они создали маленькую Республику Армения на землях Азербайджана, то есть на территории бывшего Иреванского ханства, и постепенно расширяли его территория. Из истории известно, что после подписания «Гюлистанского» и «Туркманчайского» договоров между Ираном и Россией, а также «Андриапольского» договора между Россией и Турцией армяне из Ирана и Турции массово переселялись на земли Азербайджан. Азербайджанцы, земли которых были оккупированы, искусственно поставлены в положение беженцев и вынужденных переселенцев.


**_Ключевые слова:_** _Зангезур, исторические земли Азербайджана, Нахчыван, Карабах_

Redaksiya heyətinin üzvü Rüstəmova Aybəniz Vilayət qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.